**BU GÜNDƏLİYİDİR.**

Nikki C. Maksvelə aiddir

*ŞƏXSİ VƏ MƏXFİDİR*

Tapsanız, xahiş edirəm, mükafat qarşılığında MƏNƏ göndərin!

(KƏNAR ADAMLARIN OXUMAĞINA İCAZƏ VERİLMİR!!! ☺)

Rachel Renée Russell

# DORK diaries

## Tales from a NOT-SO-Talented Pop Star

5487295
5487295

REYÇEL RENE RASSEL

# NİKKİNİN

## GÜNDƏLİYİ 3

548729

Çox da istedadlı
OLMAYAN
pop ulduzdan
hekayələr

548729

QANUN NƏŞRİYYATI

Bu kitabda oxuyacağınız hər şey uydurmadır. Tarixi hadisələrdən, real insanlardan və yerlərdən xəyali şəkildə istifadə edilib. Digər ad, obraz, yer və hadisələr müəllif təxəyyülünün məhsulu olmaqla real hadisə, yer və insanlarla oxşarlığı tamamilə təsadüfi xarakter daşıyır.

Rachel Renee Russell Tales from a NOT-SO-Talented Pop Star
Reyçel Rene Rassel Çox da istedadlı olmayan pop ulduzdan hekayələr
(Nikkinin Gündəliyi 3)

Janr: uşaq ədəbiyyatı
Yaş qrupu: 12+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 320

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Lalə İsmayıl
Redaktor: Hədiyyə Şəfaqət
Korrektorlar: Arzu Səməd, Ülviyyə Emin
Texniki redaktor: Əsəd Qaraqaplan
Mətn dizaynı: Xəyalə Şirinli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-945-6

© Qanun Nəşriyyatı, 2024; 2026
© 2011 by Rachel Renée Russell

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

Nənəm Lilli Qrimmetə

90 yaşın mübarək olsun!

Uşaqlığımda mənə çoxlu qələm,

kağız aldığın və öpüb-qucaqladığın üçün

çox-çox təşəkkürlər.

# TƏŞƏKKÜRLƏR

Bütün Nikki pə rəstişkarlarına bu kitab seriyasını mənim qədər sevdikləri üçün təşəkkür edirəm. Artıq 3-cü Kitabda olduğumuza inana bilmirəm! İçinizdəki dəliyə parıldamaq imkanı verməyi unutmayın.

Möhtəşəm redaktorum, Nikkini məndən də yaxşı tanıyan, Liza Abrams. Kitabın böyük partlayış yaratmağı üçün keçirdiyimiz saysız hesabsız saatlara görə təşəkkürlər. Sənin də dediyin kimi, hər şey olmalı olduğu kimi oldu. Belə davam, Yarasa qız!

Əlinə sarı rəngli bir qeyd vərəqi alıb iki sadə rənglə möcüzələr yaradaraq  məni həmişə heyran etməyi bacaran sehrli incəsənət rəhbərim Lisa Veqaya təşəkkürlər.

Mara Anastas, Betani Bak, Pol Krayton, Kerolin Sverdlof, Met Pantoliano, Ketrin Devendorf və AladdinSaymon və Şusterdəki komandamın yerdə qalanına bütün əməkləri üçün təşəkkürlər.

Yazıçılar Evindəki nümayəndəm Deniel Lazar, bu yolda hər addımda mənimlə birlikdə olduğun üçün təşəkkürlər. Özümə daha yaxşı "cinayət ortağı" seçə bilməzdim! Məni həmişə güldürdüyü üçün Stefen Bara xüsusi təşəkkür.

Yazıçılar Evində xarici ölkələrdəki müəllif hüquqlarıma nəzarət edən Maya Nikoliç, Sesiliya de la Kampa, Anqarad Koval, Nikkini dünyaya tanıtdığınız üçün sağolun.

Qızım və istedadlı köməkçim Nikki Rassel, etdiklərin üçün sənə təşəkkür etməyə haradan başlayacağımı bilmirəm. Bu xəyalımı səninlə bölüşdüyüm üçün şükür edirəm.

Sosiskalı pizza və pendirli sendviç üçün mənimlə işləməyə həvəsli olan, qəddar tənqidçilərim, bacım qızları Ariana Robinson, Mikayla Robinson, Sidney Ceymsə, Kori Ceymsə və Presli Ceymsə təşəkkürlər.

## 1 NOYABR, CÜMƏ

İLAHİ!

Məncə dünən həyatımın ƏN YAXŞI günü idi ☺!!!

Bunu təkcə Cadugərlər bayramı rəqsində xoşladığım oğlan Brendonla ƏLA vaxt keçirdiyim üçün yox, onun məndən həqiqətən də xoşu gəldiyini düşündüyüm üçün deyirəm! URRRRRRRAAAAAAA!!!! ☺!!

"Xoşlamaq" deyəndə yəni ƏSL yaxşı dost kimi yəni.

Qətiyyən sevgili ya da başqa bir şey kimi YOX. Milyon il də keçsə bunun HEÇ VAXT olmayacağına əminəm!

NİYƏ? Çox güman, məktəbdəki ən böyük GİCBƏSƏR olduğuma görə.

Üzümdəki sızanaqlar, yöndəmsizliyim, sosial həyatımın olmamağı və sıfır məşhurluğumla, qətiyyən bir gün başında tacı ilə məzuniyyət gününün kraliçası olacaq o qızlardan deyiləm.

Ancaq aşiq, yüngülcə-səfeh, sevgidən əziyyət çəkən, dağınıq, şık tərzimlə namizəd ola biləcəyim yeganə şey budur...



GİCBƏSƏRLƏR ŞAHZADƏSİ! (şəklin üstü)